# Ön söz

Əslində, yeni kitab yazmaq fikrində deyildik. Planımız sadəcə 1991-ci ildə yazılmış "Strateji düşünmək" kitabına yenidən nəzər yetirmək idi. Amma işlər düşündüyümüz kimi getmədi.

Bu mənada, yəni, köhnə kitaba yeni yoxlama yazısı əlavə etmək üçün ən yaxşı nümunələrdən biri Servantesin "Don Kixot" əsərini yenidən yazmaq qərarına gələn Pyer Menardın Borges obrazıdır. Menardın yeni yazısı əsas mətnə sözbəsöz uyğun olaraq sona çatır. Halbuki, ədəbiyyat tarixində Don Kixotun yazıldığı vaxtdan 300 il vaxt keçmişdi. Menardın istifadə etdiyi sözlər eyni olsa da, məna baxımından bu gün tamamilə fərqlidir.

Təəssüf ki, bizim yoxlama yazımız "Don Kixot" deyil və əsli ilə müqayisədə bəzi sözlər dəyişdirilməli idi. Əslində kitabın böyük hissəsi tamamilə yenilənib. Bu nəzəriyyədə artıq daha yeni tətbiqetmələr və yanaşmalar formalaşmışdı. Odur ki, kitaba yeni ad da verməli olduq. Yeni kitabın sözləri fərqli olsa da, mənası olduğu kimi qalır. Niyyətimiz dünyaya baxışınızı dəyişdirmək, oyun nəzəriyyəsinin əsas anlayışları və məntiqini izah edərək strateji düşünmənizə dəstək olmaqdır.

Eynilə Menard kimi biz də məsələyə yeni yanaşma gətirmişik. "Strateji düşünmək" kitabını yazanda cavan idik və həmin dövrün tələbləri eqosentrik yarış ruhunda idi. O vaxtdan bəri strateji vəziyyətlərdə başqaları ilə əməkdaşlığın nə qədər vacib olduğunu və yaxşı strategiya qurmaq üçün mən-mərkəzçi yarışla yanaşı, müştərək iş görməyin qarışıq formada tətbiq edilməsinin vacibliyini anlamışıq.

Əvvəlki kitabda ön söz belə başlayırdı: “Strateji düşünmək öz rəqibinin səni məğlub etməyə çalışdığını bildiyin təqdirdə onu üstələməyə çalışmaq bacarığıdır”. İndi isə həmin fikri belə ifadə edirik: Strateji düşünmək insanlar bir-birinə kömək etmək üçün yox, ancaq özünü düşünərək hərəkət etsələr belə, yenə də onlarla əməkdaşlıq etməyin yollarını axtarıb tapmaq sənətidir. Bu, başqalarını və hətta özünü dediklərini etməyə inandırmaq sənətidir. Məlumatı izah və şərh edə bilmək sənətidir. Özünü başqalarının yerinə qoya bilmək, onların nə edəcəklərini proqnozlaşdıra bilmək və onlara təsir etmək sənətidir.

Biz “Strategiya sənəti”nin kamil dünyagörüşünü özündə ehtiva etdiyi fikrindəyik. Belə düşünməyi sevirik. Amma bu sahədə də davamlılıq mövcuddur. Bizim əsas məqsədimiz elə əvvəlki kimi qalmaqdır: nə qədər real həyat hekayələrindən bəhs etsək də, üzləşəcəyiniz strateji vəziyyətlərdə həmin vəziyyətə uyğun öz fikirlərinizi yarada bilməyi öyrətmək. Bu, hava limanında ayaqüstü oxuyacağınız, “Strateji uğur əldə etməyin yeddi dəqiq yolu” kitabı deyil. Düşəcəyiniz situasiyalar tamam fərqli ola bilər, amma bəzi ümumi prinsipləri bilsəniz və onları strateji oyunlarınızda tətbiq etsəniz, uğur qazanacaqsınız.

İş adamları və şirkətlər işlərini davam etdirməkdən ötrü yaxşı rəqabət strategiyaları yaratmalı, məhsullarını böyütmək üçün qarşılıqlı imkanlar tapmalıdırlar. Siyasətçilər seçkilərdə qalib gəlmək üçün kampaniya strategiyaları hazırlamalı, məqsədlərini həyata keçirmək üçün isə qanun çərçivəsində strategiyalar tapıb tətbiq etməlidirlər. İdman yarışlarında məşqçilər oyunçuların meydanda tətbiq etməsi üçün strategiyalar qurub hazırlayır. Valideynlər uşaqlarından nümunəvi davranışlar görmək istəyirlərsə, onlar da həvəskar strateq olmalıdırlar, uşaqlar özləri isə bu mənada peşəkardırlar.

Bu kimi müxtəlif və sonsuz saydakı vəziyyətlərdə strateji düşünmək həmişəki kimi xüsusi sənət olaraq qalmaqdadır. Amma bu sənətin təməli bir neçə sadə baza prinsiplərdən ibarətdir. Bunlardan biri yeni yaranan və strategiya elmi olan Oyun Nəzəriyyəsidir. Fikrimizcə, müxtəlif keçmişləri

və fərqli peşə sahibləri olan oxucularımız bu təməl prinsipləri öyrənsələr, öz sahələrində yaxşı strateqlərə çevrilə bilərlər.

Bir çoxları bizdən soruşur ki, əksər insanların məntiqdən kənar davrandığı dünyada bu cür elmi və məntiq metodları necə tətbiq edəcəyik? Dəlilik üçün həmişə bir metod tapılır. Doğrudan da insan psixologiyası və qərəzlərin qarışığından ibarət yeni davranışlar, oyun nəzəriyyəsinə sosial elementlər əlavə edir. Nəticə olaraq, oyun nəzəriyyəsi insanlara bizim onları görmək istədiyimizdən daha çox, özlərinin olduğu kimi davranmaqlarına kömək edir. Mübahisələrimizdə bu fikirlərə də yer ayırmışıq.

Oyun nəzəriyyəsi nisbətən cavan elm sahəsi olmağına baxmayaraq – son yetmiş ildə – praktiki strateqlər üçün çox faydalı anlayışlar təqdim edə bilib. Amma bütün digər elmlər kimi o da jarqon və riyazi terminlərlə qarışıb. Bunların hamısı vacib alətlərdir, amma mütəxəssislərdən başqa digər insanların təməl fikirləri qavramağına mane olur. “Strateji düşünmək” kitabını yazmaqda bizə ilham verən əsas səbəb oyun nəzəriyyəsinin sadəcə akademik dərgilərdə bəhs edilməyəcək qədər maraqlı və vacib mövzu olması barədə qənaətimiz idi. Bir çox sahələrdə bu anlayışların nə qədər faydalı olduğu öz sübutunu tapıb: iş dünyası, siyasət, idman və gündəlik ictimai münasibətlər. Ona görə də vacib anlayışları yenidən ingilis dilinə çevirdik və nəzəri arqumentləri daha aydın misallar və real hadisələrdən ibarət nümunələrlə əvəzlədik.

Bizim yanaşmamızın bu sahədə ana fikrə çevrilməyindən çox məmnun olduq. Oyun nəzəriyyəsi kursları Prinston və Yel Universitetində ən məşhur seçim dərslərdən birinə çevrilib və digər tanınmış universitetlərdə populyarlıq qazanmağa başlayıb. Oyun nəzəriyyəsi MBA proqramlarına daxil olub və Google-də axtarış verdikdə 6 milyona yaxın əlaqəli səhifə tapılır. Oyun nəzəriyyəsinə qəzetlərin əsas başlıqlarında, köşə yazılarında, müxtəlif sosial debatların mövzularında rast gələ bilərsiniz.

Əlbəttə, bu strategiyanın inkişafında rolu olan başqa şəxs və təşkilatlar da var: oyun nəzəriyyəsinə görə, 1994-cü ildə John Harsanyi, Jon Nash və Reinhard Nelsen-ə, 2005-ci ildə isə Robert Aumann və Thomas Schel-

ling-ə, ən çox satılan bioqrafik əsər “Ağıl oyunları”nın müəllifi Sylvia Nasar-a mükafat təqdim etmiş İqtisadiyyat üzrə Nobel Mükafatı Komitəsi; eyniadlı əsərə film çəkərək yenidən mükafat qazanan sənətçilər, müxtəlif kitablar yazaraq mövzuya populyarlıq qazandıran yazarlar. Bu sahədə az da olsa bizim rolumuz da var. “Strateji düşünmək” kitabı çap olunandan bu günə qədər 250000 nüsxə satılıb. Bir çox dillərə tərcümə olunmuş kitabın yapon və ibri dilindəki tərcümələri ən çox satılanlar siyahısındadır.

Tom Schelling-ə xüsusi təşəkkür borcluyuq. Nüvə strategiyası barədə yazdıqları, xüsusilə də “Münaqişə strategiyası” və “Silah və təsir gücü” əsərləri kifayət qədər məşhurdur. Faktiki olaraq Schelling bir çox oyun nəzəriyyəsi anlayışlarını nüvə münaqişələri ilə eyniləşdirmə prosesinə başçılıq edib. Michael Porter-in iş dünyasındakı strategiyalar barədə dərslərdən bəhs edilən “Rəqabət strategiyası” kitabı da bu mənada çox vacib və təsirli əsərdir. İstər Schelling, istər Porter-in işləri barədə burada növbəti səhifələrdə daha çox istinadlara yer verəcəyik.

Bu kitabda ideyaları hər hansı müəyyən dar çərçivəyə salmamışıq. Əksinə, bütün təməl anlayışlar üçün daha geniş nümunələr təqdim etmişik. Odur ki, müxtəlif maraq dairəsi olan oxucularımızın hamısı bu kitabdan özlərinə uyğun yanaşmalar tapa biləcəklər. Oxucularımız həmin prinsiplərin bir-birinə çox az yaxın olan vəziyyətlərdə belə, eyni təsir gücünə sahib olduğuna da şahidlik edəcəklər; bununla da, kitabın onlara həm tarixdə olanlara, həm də yeni hadisələrə yeni baxış bucağı təqdim edəcəyini ümid edirik. Kitabda həmçinin filmlər, ədəbiyyat, idman və s. sahələrdə oxucularımızın şəxsi təcrübələrindən də nümunələr paylaşmışıq. Bir çox ciddi elm adamları bunun strategiyanın əhəmiyyətini azaltdığını düşünürlər, amma bizim fikrimizcə, ideyaları insanlara çatdırmaq üçün oxşar təcrübələrə istinad etmək ən effektiv üsullardandır.

Dərs vəsaitindən daha populyar kitab yazmaq ideyası hazırda Google və Berkeley, Kaliforniya Universitetində işləyən Hal Variandan gəlmişdir. Kitabın redaktəsi mərhələsində bizə bir çox faydalı ideyalar və şərhlər də təqdim edib. W. W. Norton-dan Drake McFeely “Strateji düşünmək” kitabının qüsursuz nəşri işini təşkil etmişdi. Bizim akademik dildə yazılmış

kitabımızı gündəlik dilə redaktə etmək üçün əlindən gələni əsirgəməmişdi. “Strateji düşünmək” kitabının əksər oxucuları bizə öz tənqidlərini yolladı, təkliflərini verdi və “Strategiya sənəti” kitabını yazmaq üçün bizi ilhamlandırdı. Bəzilərini nəzərdən qaçırmaq riskimiz olsa da, bu mənada bizə dəstək verənlərə burada xüsusi təşəkkür etməyi özümüzə borc bilirik. Əlaqəli və əlaqəsiz digər kitablarımızın həmmüəllifləri olan Ian Ayres, Adam Brandenburger, Robert Pindyck, David Reiley və Susan Skeath çox həssas davranaraq bizdən köməklərini əsirgəmədilər. Bu kitabın ərsəyə gəlməsində təsirləri olmuş digər şəxslər isə David Austen-Smith, Alan Blinder, Peter Grant, Seth Masters, Benjamin Polak, Carl Shapiro, Terry Vaughn və Robert Willig-dir. W. W. Norton nəşriyyat evindən çox anlayışlı, yardımsevər, işinə diqqətlə yanaşan “Strategiya sənəti” kitabının redaktoru Jack Repcheck-ə də xüsusi təşəkkürümüzü bildiririk. Kitabımızın korrektorları Janet Byrne və Catherine Pichotta səhvlərimizə qarşı çox səbirli və comərd davrandılar. Bu kitabda qarşılaşmadığınız hər səhvə görə onlara təşəkkür etməlisiniz.

“Financial Times” kitab tənqidçisi Andrew St. George-a da xüsusi təşəkkürə layiq əməkdaşdır. Ən çox oxuduğu kitab kimi “Strateji düşünmək” kitabını 1991-ci ilin “Ən yaxşı kitabı” adlandırarkən bu sözlərini də əlavə etmişdi: “Məntiqli düşünməyi öyrənmək üçün idman zalına olunan səyahət” (FT Weekend, Dekabr 7/8,1991). Bu bizə oxucuların beynində qarışıqlıq yaradan mövzular üçün “İdman Zalına Səyahət” başlığını seçmək ideyasını verdi. Nəhayət, Berkeley, Kaliforniya Universitetindən John Morgan bizə bir qədər təhdid dolu, amma çox güclü stimul verdi: “Əgər təkrar yoxlama yazısı yazmasanız, mən özüm sizə rəqib kitab yazacağam!” Bundan sonra onu bu əziyyətdən xilas elədik və bizə xeyli təkliflər və ideyalar verdi.

*AVINASH DIXIT,*
*BARRY J. NALEBUFF,*
*Oktyabr, 2007*

# İnsanlar cəmiyyətdə necə davranmalıdır?

Bu suala cavabımızın nə etika qaydaları, nə də etiketlərlə əlaqəsi var. Məqsədimiz filosoflar, vaizlər, valideynlərlə rəqabətə girmək deyil. Əxlaq və davranış qaydaları qədər ali olmasa da, mövzumuzun həyatımıza kifayət qədər təsir gücü mövcuddur. Bu kitab strateji davranışlar haqqındadır. Bu fikri bəyənsək də, bəyənməsək də hamımız strateqlərik. Pis strateq olmaqdansa, yaxşı strateq olmaq daha yaxşıdır. Bu kitabın məqsədi effektiv strategiyaları kəşf etmək və onlardan istifadə üsullarını öyrənmək barədə bacarıqlarınızı inkişaf etdirməkdir.

İş və sosial həyatımız daimi qərarlar axınından ibarətdir. Hansı sahədə karyera quraq? Biznesimizi necə idarə edək? Kimlə evlənək? Uşaqları necə böyüdək? Prezidentliyə necə namizəd olaq? Bunlar həmin taleyüklü məsələlərin bir qismidir. Bu nüansların hamısının ortaq cəhəti birdir: siz heç bir halda boşluqda hərəkət etmirsiniz. Ətrafınız, seçimlərinin nəticəsi